**24.04.2013**
**MƏNBƏ: “Yeni Obyektiv” qəzeti, № 02 (12)**

# Bacarıqlı rəhbər, istedadlı mühəndis.

*Yaradıcılıq impulsu insanlığın ilahi vergisidir. Lakin yaratmaq bacarığı və istedadı az adama nəsib olan xoşbəxtlikdir. Tarix də öz istedadının imkanlarından istifadə edib, əsərlərini dünyaya, bəşəriyyətə hədiyyə edəni yaşadır. Təbiətlə harmoniya yaradan, öz dövrərinin yaşam tərzini, düşüncə modelini, zövqünü bu günə daşıyan abidələr - saraylar, evlər tikən, yollar çəkən, körpülər salan memar və inşaatçılar da bu xoşbəxtlərin siyahısına aiddirlər. Çünki onların istedadı xeyirxah bir missiyaya xidmət edir - dünyanı gözəlləşdirmək.*

## Bacarıqlı rəhbər, istedadlı mühəndis

Bu gün də bu sənət adamları öz fantaziyalarının gücünü, yaradıcılıq imkanlarını öz ölkələrinin gözəlləşməsinə, xalqlarının rahat yaşamaları üçün sərf edirlər. Haqqında söhbət açacağımız Vidadi Hüseynov də onlardan biridir - yaradıcılıq potensialını, biliyini, bacarığını ölkənin tərəqqisinə, xalqının firavanlığına həsr edən mühəndis inşaatçı.

Vidadi Xanoğlan oğlu Hüseynov 1960-cı il oktyabrın 5-də Cəlilabad rayonunun Hacıismayıllı kəndində anadan olmuşdur. 1967-1975-ci illərdə 8-illik Hacıismayıllı kənd məktəbini bitirmişdir. 1975-1977-ci illərdə Cəlilabad şəhər 7 saylı tam orta məktəbini bitirmişdir.

1978-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun Yol-İnşaat fakültəsinə daxil olmuşdur. 1979-1981-ci illərdə Sovet ordusu sıralarında hərbi xidmətdə olmuşdur. 1987-ci ildə ali məktəbi başa vurmuşdur. Ali təhsilini gecə növbəsində aldığı üçün əmək fəaliyyəti ilə məşğul olmuşdur.

1981-ci ildə Bakı “Elektroştamp” zavodunda fəhlə vəzifəsində işə başlayan Vidadi Hüseynov sex rəisi vəzifəsinədək yüksəlmişdir. 1999-2001-ci illərdə Biləcəri Mülki dəmiryolçularının Mədəniyyət və İstirahət



parkının direktoru, 2001-2002-ci illərdə Bakı şəhəri 13 saylı Körpü-tikinti qatarında iş icraçısı, 2002-2003-cü illərdə “İntəpə-İnşaat” LTD müəssisəsi - şpal zavodunda, “Azərdəmiryolservis” İB Dəmir Yolu Konstruksiyaları Kombinatı (DYKK) - Dəmir-beton şpalları zavodunda sex rəisi vəzifələrində işləmişdir. 2005-ci ildən “Azərinşaatservis” MMC-nin Şpal zavoduna menecer vəzifəsinə işə qəbul olunmuşdur. 2007-ci ildə icraçı direktor vəzifəsinə irəli çəkilmişdir. Hal-hazırda “Azərinşaatservis” MMC Ələt İstehsalat Birliyinin direktoru vəzifəsində çalışır.

Evlidir, iki övladı, iki nəvəsi var.

Vidadi müəllim işlədiyi bütün müəssisələrdə funksiya və vəzifələri artdıqca, işə daha artıq məsuliyyətlə yanaşmışdır. İcraatında olan işlərin təşkilinə, görülən işin keyfiyyətinə ciddi nəzarət etmiş, tabeçiliyində olan işçilərin təhlükəsizliyinə diqqət yetirmiş, işlərin layihə üzrə aparılmasını təmin etmişdir. Vidadi Hüseynovun intellektual imkanlarının, fərdi bacarığının çevrəsində düzgün proqnozlaşdırmaq, aydın və dəqiq tapşırıqlar verməik, çətin məqamlarda düzgün qərarlar qəbul etmək keyfiyyətləri var. O, öz qərarlarının nəticələrini qabaqcadan görə bilir. Rəhbərlik etdiyi müəssisənin son illərdə qazandığı uğurların başlıca səbəbi də sözsüz ki, Vidadi müəllimin bu sadaladığımız müsbət xüsusiyyətləridir. Ancaq təbiətcə çox təvazökar insan olan Vidadi Hüseynov nailiyyətlərin başlıca səbəbi kimi müəssisənin işçilərinin zəhmətkeşliyini və “Azərinşaatservis” ASC rəhbərliyinin maddi-texniki təminat məsələlərini xüsusi diqqət mərkəzində saxlaması ilə əlaqələndirir.

Vidadi Hüseynovun özünün və rəhbərlik etdiyi kollektivin fəaliyyəti ictimaiyyət tərəfindən təqdir olunur. Hesab edirik ki, bu fəaliyyət daha böyük qiymətə layiqdir. Qiymət isə dəyərə layiq olduqda stimula çevrilir.

Azərbaycan KİVİHİ-nin rəy sorğusuna görə “İlin adamı” (2013-cü il) ali media mükafatına layiq görülüb. Daha böyük mükafatlara layiq olan Vidadi müəllimə yeni-yeni müvəffəqiyyətlər arzulayırıq.